

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 44 (21.705)

2 mart 2017-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Martın 1-də Pakistan İslam Respublikasının paytaxtı İslamabadda İqtisadi Əməkdaşlıq Təşkilatının XIII Sammiti keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sammitdə iştirak edib.

Sammitdə iştirak edən nümayəndə heyətlərinin rəhbərləri əvvəlcə rəsmi foto çəkdiriblər.

Zirvə görüşü "Qurani-Kərim"dən ayənin oxunması ilə başlayıb.

Sammiti İqtisadi Əməkdaşlıq Təşkilatının XII Zirvə görüşünə ev sahibliyi edən və təşkilata sədrliyi həyata keçirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açıq elan edib.

Dövlətimizin başçısı Zirvə görüşündə çıxış edib.

Sammitdə digər çıxış edənlər İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin qarşıda duran məsələlərin həlli üçün səylərini bundan sonra daha da gücləndirmələrinin, iqtisadi əlaqələri möhkəmləndirməyin, qarşılıqlı investisiya yatırımlarının artırılmasının və səmərəli təkliflərin nəzərə alınmasının vacibliyini vurğulayıblar, Pakistana bu təşkilata sədrliyi dövründə uğurlar arzulayıblar.

Tədbirin sonunda İslamabad Bəyannaməsi qəbul edilib.

## Heydər Əliyev Universitetinin növbəti məşğələsi



***Naxçıvan Dövlət Universitetində Heydər Əliyev Universitetinin "Ulu öndər Heydər Əliyev və İslam mədəniyyəti" mövzusunda 211-ci məşğələsi keçirilib.***

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov tədbiri giriş sözü ilə açaraq bildirib ki, İslam dini Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin əsasını təşkil edir. Rektor qeyd edib ki, ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra Azərbaycanda dini sahədə vəziyyətin yaxşılaşdırılması, dövlət-din münasibətlərinin tənzimlənməsi və radikal qruplaşmaların fəaliyyətinin qarşısının alınması istiqamətində mühüm tədbirlər həyata keçirilib. 1993-cü ildə ümummilli liderimizin "Allahın yolunda hamımız hür olaq" adlı kitabı Azərbaycan və bir neçə xarici dildə, o cümlədən ərəb dilində nəşr olunub. 1994-cü ilin iyul ayında ulu öndərin müqəddəs Məkkə və Mədinəyə ümrə ziyarəti İslam dünyasının diqqət mərkəzində olub. 1996-cı və 1997-ci illərdə "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununa əlavə və dəyişikliklərin edilməsi ilə dövlət-din münasibətlərində yeni bir mərhələnin əsası qoyulub, dövlətin din sahəsinə və dindarlara qayğısı artıb. Bu ənənə bu gün də ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi Vüqar Babayev çıxışında vurğulayıb ki, çoxmillətli və çoxkonfessiyalı Azərbaycan Respublikasının şərəfli bir tarixi vardır. Bu tarixin böyük bir mərhələsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər ictimai-siyasi həyatın bütün sahələrində, o cümlədən dövlət-din münasibətlərinin tənzimlənməsində, dini etiqad azadlığının təminatında, dini dəyərlərin qorunmasında müstəsna xidmətlər göstərib. Qüdrətli şəxsiyyət bu sahədə özündən sonra böyük siyasi və dövlətçilik təcrübəsini miras qoyub. Ümummilli liderin siyasi xəttini uğurla davam etdirən Prezident cənab İlham Əliyev bu gün Azərbaycanın dini etiqad azadlığının qorunması və beynəlxalq aləmdə nüfuzunun daha da möhkəmlənməsi üçün əhəmiyyətli işlər görür. Həyata keçirilən məqsədyönlü siyasət nəticəsində bu gün ölkəmiz multikultural dəyərlərin yaşadıldığı və təbliğ olunduğu bir məkan kimi dünyada şöhrət qazanıb.

Vurğulanıb ki, bu gün muxtar respublikada da dini tolerantlıq mühiti mövcuddur. 2014-cü il avqustun 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə muxtar respublikada dövlət orqanlarının dini qurumlarla qarşılıqlı fəaliyyətinin təşkil edilməsi, multikulturalizm və dövlət-din münasibətlərinin daha dolğun təzimlənməsi məqsədilə multikulturalizm və dini məsələlər üzrə komissiyalar yaradılıb. Qeyri-islami icmalar olmayan muxtar respublikada radikal və dini nifrət yayan cərəyanlara, qondarma dini təriqətlərə, zərərli dini ideyalara qarşı mübarizə məqsədilə maarifləndirmə işləri aparılır.

## "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018" loqotipinin təqdimatı olub




***Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018" loqotipinin təqdimatı olub.***



Təqdimat mərasimində çıxış edən birliyin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva bildirib ki, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin 2009-cu ilin oktyabrında Bakı şəhərində keçirilmiş altıncı konfransında qəbul edilmiş qərarla Naxçıvan şəhəri 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı il iyunun 2-də imzaladığı Sərəncama əsasən Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılan Təşkilat Komitəsinin ötən il noyabrın 15-də keçirilən ilk iclasında hazırlıq işləri ilə bağlı məsələlər müzakirə olunub, görüləcək işlərin istiqaməti müəyyənləşdirilib. Bu il yanvarın 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018" loqotipinin hazırlanması haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması ilə əlaqədar loqotipin hazırlanması məqsədilə yaradıcılıq müsabiqəsi elan edilib.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi ilə Rəssamlar Birliyi tərəfindən müsabiqənin əsasnaməsi hazırlanıb və həmin əsasnaməyə uyğun olaraq təyin edilmiş münsiflər heyəti tərəfindən loqotip seçilib. Müsabiqədə həm Naxçıvanda, həm də muxtar respublikadan kənarda yaşayan yaradıcı insanlar – rəssamlar, memarlar və tələbələr iştirak edib, 40-a yaxın iştirakçı tərəfindən 70-dən çox loqotip təqdim olunub. Qiymətləndirmə zamanı yaradıcı yanaşma, işin təsiredici qüvvəyə malik olması və asan qavranılması ilə yanaşı, həmin loqotipin Naxçıvanın türk-islam mədəniyyəti nümunələrini, eləcə də qədim tarixini və müasirliyini əks etdirməsinə üstünlük verilib.

Vurğulanıb ki, fevralın 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" loqotipinin seçilməsi ilə bağlı tədbir keçirilib. Həmin tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri qeyd edib ki, təqdim olunmuş loqotiplərdən mövzunun əhatə olunması baxımından ən uyğunu müəllifi Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvü Tapdıq Həmzəyev olan loqotipdir. Burada Naxçıvanın həm türk, həm də İslam mədəniyyətinin daşıyıcısı olması, Naxçıvanın qədim və müasir tarixi rəmzlərlə çatdırıla bilib.

Ülviyyə Həmzəyeva loqotipin mənası barədə danışaraq deyib: "Haçadağın təsviri onu ifadə edir ki, Naxçıvan qədim tarixə malikdir və həmçinin naxçıvanlılar dağ kimi vüqarlı, əyilməzdirlər. Dağın içərisində alovun təsviri həyat əlamətini göstərməklə bərabər, həm də Azərbaycanın "Odlar yurdu" olduğunu ifadə edir. Alovun içərisində yazılan Allah sözü İslamın rəmzi, Naxçıvanın müqəddəs torpaq olduğunun göstəricisidir. Ayparanın və onun üzərindəki bayrağın, həmçinin ulduzun təsviri dövlətçiliyimizin ifadəsidir".

Təklif olunan loqotip "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" loqotipi kimi qəbul olunub. Ali Məclisin Sədri Tapdıq Həmzəyevi qalib olması münasibətilə təbrik edib, ona pul mükafatı verilib.

Ülviyyə Həmzəyeva rəssamlara göstərdiyi diqqət və qayğıya görə muxtar respublika rəhbərinə birliyin üzvləri adından minnətdarlığını bildirib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Həsən Kərimov, Naxçıvan Muxtar Respublikası Memarlar Birliyinin sədri Heydər Əhmədov çıxış ediblər.

Loqotipin müəllifi Tapdıq Həmzəyev bildirib ki, Rəssamlar Birliyinin digər üzvləri kimi, mən də müsabiqəyə qatılaraq 3 layihə təqdim etdim. Hazırladığım loqotipin seçilməsi məni çox sevindirdi. Lakin mənim üçün ən böyük mükafat Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən təbrik edilməyim oldu. Muxtar respublika rəhbərinə əməyimə verdiyi yüksək qiymətə görə öz dərin minnətdarlığımı bildirirəm.

## Bu il muxtar respublikanın 7 kəndində kompleks quruculuq işləri aparılacaq

***Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan sosial-iqtisadi inkişaf xətti ölkəmizdə digər sahələrlə yanaşı, tikinti-quruculuq işlərinin də geniş vüsət almasına səbəb olub. Dövlətimizin iqtisadi qüdrətinin gücü kimi dəyərləndirilən tikinti-quruculuq tədbirləri Naxçıvan Muxtar Respublikasında da genişmiqyaslılığı ilə seçilir.***



Qabaqcil dünya təcrübəsini və inşaat texnologiyalarını mənimsəyən tikinti sektoru muxtar respublikaya sürətli quruculuq, səmərəli podratçılıq, yüksək keyfiyyət və müasir dizayn gətirib. Bu sahədə əldə olunmuş təcrübənin nəticəsidir ki, hər il muxtar respublikanın şəhər və rayon mərkəzlərində, kənd yaşayış məntəqələrində yeni binalar tikilir, müasir istehsal sahələri, sosial infrastruktur yaradılır, qədim tikililər təmir olunur, kommunikasiya sistemləri yenilənir.

Əvvəlki illərdə olduğu kimi, 2017-ci ildə də tikinti-quruculuq tədbirləri davam etdirilir. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən verilən məlumata görə, cari ildə Naxçıvan şəhərinin Qaraxanbəyli kəndində 414 şagird yerlik tam orta məktəb binasının, kənd və xidmət mərkəzi binalarının tikintisi, Şərur rayonunun Ələkli kəndində 216 şagird yerlik tam orta məktəb binasının, kənd musiqi məktəbi və kənd mərkəzi binalarının yenidən qurulması, xidmət mərkəzi binasının tikintisi, Ərəbyengicə kəndində 192 şagird yerlik tam orta məktəbin, kənd və xidmət mərkəzi binalarının, Qarahəsənli kəndində kənd və xidmət mərkəzi binalarının tikintisi və 216 şagird yerlik tam orta məktəb binasının yenidən qurulması, Babək rayonunun Payız kəndində 252 şagird yerlik tam orta məktəb binasının yenidən qurulması, kənd və xidmət mərkəzi binalarının tikintisi, Culfa rayonunun Dizə kəndində 216 şagird yerlik tam orta məktəbin, kənd və xidmət mərkəzi binalarının tikintisi, Ordubad rayonunun Üstüpü kəndində 252 şagird yerlik tam orta məktəbin, kənd mərkəzi, xidmət mərkəzi və həkim ambulatoriyası binalarının tikintisi nəzərdə tutulub.

Qeyd edək ki, ötən il muxtar respublikada 14 təhsil müəssisəsi, 4 həkim ambulatoriyası, 9 feldşer-mama məntəqəsi, 29 mədəniyyət obyekti, 13 kənd mərkəzi, 14 xidmət mərkəzi tikilərək və ya yenidən qurularaq istifadəyə verilib, 17 inzibati bina inşa olunub, 61,5 kilometrdən artıq yeni avtomobil yolları salınıb, 3 körpü tikilib, 2 körpü isə yenidən qurulub.

**Xəbərlər şöbəsi**

## Azərbaycanın Birləşmiş Millətlər Təşkilatı ilə sıx əlaqələr qurması beynəlxalq təhlükəsizliyin və sülhün qorunmasına öz töhfəsini verir

*Sürətlə inkişaf edən, müasir ölkəyə çevrilən Azərbaycan Respublikası beynəlxalq arenada da böyük nüfuz qazanmış, qlobal geosiyasi məkanda cərəyan edən proseslərə çevik və adekvat reaksiyası ilə diqqəti üzərinə cəlb etmişdir. Bu baxımdan ölkəmizin beynəlxalq hökumətlərarası təşkilat olan Birləşmiş Millətlər Təşkilatı ilə əlaqələrinin inkişafı böyük əhəmiyyət kəsb edir.*



Azərbaycan dövləti 1992-ci il martın 2-də BMT-nin Baş Məclisinin 46-cı sessiyasında bu nüfuzlu beynəlxalq quruma tamhüquqlu üzv qəbul edilmişdir. Həmin gün Nyu-Yorkda Azərbaycanın üçrəngli dövlət bayrağı qaldırılmış, may ayının 6-da isə Azərbaycanın BMT nəzdində Daimi Nümayəndəliyi açılmışdır.

Buna baxmayaraq, müstəqilliyimizin ilk illərində hakimiyyət dairələrinin dövlət idarəçiliyindəki naşılığı və siyasi səbatsızlığı üzündən ölkəmizin beynəlxalq qurumlarla, o cümlədən BMT ilə əməkdaşlığı lazımi səviyyədə deyildi. Bu da yenicə bərpa olunmuş dövlət müstəqilliyimizin davamlı olmasına mənfi təsir göstərir, dünyaya inteqrasiyanın qarşısında ciddi maneəyə çevrilirdi. Ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəlişindən sonra bütün bunlara son qoyuldu. Böyük tarixi şəxsiyyətin fəal diplomatiyası nəticəsində Azərbaycan dünyanın demokratik dövlətləri və aparıcı ictimai təşkilatları ilə sıx əlaqələr yaratdı. Ulu öndər Heydər Əliyev nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığı xarici siyasətin prioriteti hesab edərək deyirdi: ***“Respublika qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir”.***

Ulu öndər Heydər Əliyev BMT ilə əlaqələrin möhkəmləndirilməsinə xüsusi əhəmiyyət verirdi. Çünki bu mötəbər qurumla sıx əməkdaşlıq Azərbaycanın beynəlxalq mövqelərini gücləndirməklə yanaşı, dünya dövlətləri ilə bərabərhüquqlu faydalı münasibətlər qurmasına da real imkanlar yaradırdı. Bununla müstəqilliyimizin ilk illərindən Ermənistan silahlı qüvvələrinin ərazi bütövlüyümüzü pozaraq torpaqlarımızı işğal etməsi faktını da mötəbər beynəlxalq təşkilatın tribunasından bütün dünyaya çatdırmaq imkanı əldə etmiş olurduq. Azərbaycan BMT platformasından beynəlxalq ictimaiyyətin diqqətini Ermənistan-Azərbaycan münaqişəsinə cəlb etməyə çalışmış və həlledici məqamlarda öz məqsədinə nail olmuşdur. Təsadüfi deyil ki, ölkəmizin təşəbbüsləri nəticəsində BMT-nin Təhlükəsizlik Şurası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair 822, 853, 874 və 884 saylı qətnamələr qəbul etmişdir. Bu qətnamələr Azərbaycanın ərazi toxunulmazlığını yenidən təsdiq edərək, işğalçı qüvvələrin ölkə ərazisindən dərhal çıxarılması tələblərini irəli sürmüşdür. Təəssüf ki, məlum qətnamələrin müddəaları indiyə kimi yerinə yetirilməmişdir.

BMT Nizamnaməsinin 2-ci maddəsində təşkilata üzv dövlətlərin bir-birinin suverenliyinə, sərhəd toxunulmazlığına qəsd etməsinin yolverilməzliyi göstərilmiş, 6-cı maddədə isə yazılmışdır ki, BMT Nizamnaməsinin prinsiplərini sistematik olaraq pozan ölkə Təhlükəsizlik Şurasının təqdimatı və Baş Assambleyanın qərarı ilə təşkilatdan xaric edilə bilər. Nəhayət, BMT Nizamnaməsinin 51-ci maddəsinə görə, Azərbaycan məruz qaldığı işğala son qoymaq üçün hərbi gücə əl atmaq hüququna malikdir. Bütün bunlar Azərbaycanın haqlı olduğunu, əgər münaqişənin təcavüzkar Ermənistanın qeyri-konstruktiv mövqeyi ucbatından sülh yolu ilə həlli mümkün olmazsa, digər yollarla həllini istisna etmir.

Ölkəmiz BMT Baş Assambleyasının işində fəal iştirak edir. Belə ki, 1994 və 1995-ci illərdə Assambleyanın 49-cu və 50-ci sessiyalarında ümummilli lider Heydər Əliyev Azərbaycan nümayəndə heyətinə başçılıq etmişdir. O, həmçinin 2000-ci ilin sentyabr ayında BMT-nin Minillik Zirvə Toplantısında iştirak etmişdir. Həm 1995-ci ilin oktyabrında keçirilən Baş Assambleyanın 50-ci sessiyasında, həm də BMT-nin Minillik Zirvə Toplantısında çıxış edən ümummilli lider Heydər Əliyev qlobalizasiya mövzusuna toxunmuş, qlobalizasiyanın müsbət inkişafı, həmçinin Ermənistanın təcavüzünün aradan qaldırılması ilə bağlı beynəlxalq səylərin artırılmasının əhəmiyyətini vurğulamışdır.

2003-cü ilin sentyabrında isə cənab İlham Əliyev BMT Baş Assambleyasının 58-ci sessiyasında çıxış edərək bildirmişdir ki, BMT Təhlükəsizlik Şurası mürəkkəb proseslərin cərəyan etdiyi dövrdə üzvlərin arasında qarşılıqlı anlaşmazlıqların meydana çıxması şəraitində uyğun çevik və adekvat münasibət göstərə bilmir. O, mövcud BMT mexanizmlərinin zamanın tələblərinə cavab vermədiyini və bununla bağlı təşkilatda islahatların aparılmasının vacib məsələyə çevrildiyini vurğulamışdır. 2004-cü ilin sentyabrında keçirilən BMT Baş Assambleyasının 59-cu sessiyasında çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev yenidən BMT Təhlükəsizlik Şurasının fəaliyyətinə toxunaraq bu mötəbər qurumun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 4 qətnamə qəbul etdiyini xatırlatmış, onların hələ də həyata keçirilmədiyini diqqətə çatdırmış, bunun üçün işlək mexanizmin yaradılmasının zəruriliyini irəli sürmüşdür.

Azərbaycan-BMT əlaqələrinin inkişafı, möhkəmlənməsi və ölkəmizin bu təşkilatda böyük nüfuz qazanmasını göstərən ən əhəmiyyətli hadisə, şübhəsiz ki, 2011-ci il oktyabrın 24-də Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurası kimi nüfuzlu bir quruma qeyri-daimi üzv seçilməsidir. Bu həm də müstəqillik dövründə diplomatiyamızın qazandığı ən böyük uğurlardan biridir.

Azərbaycan dövləti Birləşmiş Millətlər Təşkilatının bir çox xüsusi qurum və orqanları – BMT-nin İnkişaf Proqramı, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı, BMT-nin Uşaq Fondu, BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı (YUNESKO), Sənaye İnkişaf Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, BMT-nin Qadınlar Fondu, Atom Enerjisi üzrə Beynəlxalq Agentlik, Nüvə Sınaqlarının Hərtərəfli Qadağan olunması haqqında Müqavilə Təşkilatı və digərləri ilə fəal əməkdaşlıq edir. Bu əlaqələrimiz ildən-ilə daha da genişlənməkdədir. Bu baxımdan YUNESKO ilə əməkdaşlıq önəmli çəkiyə malikdir. Qloballaşmanın bütün dünyada qarşısıalınmaz prosesə çevrildiyi, kütləvi mədəniyyət stereotiplərinin hakim olduğu bir dövrdə Heydər Əliyev Fondu xalqımızın milli varlığının və özünəməxsusluğunun ifadəsi olan zəngin mədəni irsinin və dəyərlər sisteminin bəşəri miqyasda tanınmasına və təbliğinə nail olmuşdur.

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının sürətli sosial-iqtisadi inkişafı da daim bu beynəlxalq qurumun diqqətində olmuşdur. Ötən dövrdə muxtar respublikada Birləşmiş Millətlər Təşkilatının Azərbaycan Kənd İnvestisiya Proqramı üzrə 150-dək layihəsi icra edilmişdir.

Ötən il martın 2-də Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycan Respublikasındakı rezident nümayəndəsi vəzifəsini icra edən Ercan Murat muxtar respublikaya səfər etmiş, Naxçıvan şəhərinin mədəniyyət müəssisələri, tarixi abidələri, istehsal sahələri ilə tanış olmuşdur. Mayın 12-15-də isə Naxçıvan Dövlət Universitetində “BMT Modeli” konfransı keçirilmişdir. Konfrans Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi ilə BMT-nin İnkişaf Proqramının “Qlobal siyasi müzakirələrdə gənclərin fəal iştirakının dəstəklənməsi üçün yeni platformalar yaradılması haqqında” adlı birgə layihəsi çərçivəsində baş tutmuşdur.

Göründüyü kimi, Azərbaycanın BMT üzvlüyünə daxil olması ilə yaranan qarşılıqlı əlaqələr sürətli inkişaf yolu keçərək çoxşaxəli əməkdaşlığa çevrilmişdir. Eyni zamanda Azərbaycan da bu mötəbər beynəlxalq təşkilatın daha səmərəli fəaliyyət göstərməsinə, beynəlxalq təhlükəsizliyin və sülhün qorunmasına öz töhfəsini vermişdir. Bütün bunlar respublikamızda ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş xarici siyasət kursunun uğurla davam etdirilməsinin nəticəsidir.

**Rauf KƏNGƏRLİ**

## Bu il də əhali gəlirlərinin artımı təmin olunur



***Yeni iş yerlərinin yaradılması və daimi məşğulluğun təmini yolu ilə əhali gəlirlərinin artırılması Naxçıvan Muxtar Respublikasında həyata keçirilən iqtisadi siyasətin əsas istiqamətlərindəndir. Bu sahədə qarşıya qoyulmuş vəzifələrin uğurlu həlli nəticəsində cari ilin ilk aylarında da əhali gəlirlərinin artım dinamikası təmin olunub. Belə ki, 2017-ci ilin yanvar ayında muxtar respublikada əhalinin gəlirləri 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz artaraq 103 milyon 537 min 200 manat, onun hər bir nəfərə düşən həcmi isə 0,2 faiz yüksələrək 230,4 manat təşkil edib.***

Əhali gəlirləri regional inkişafın mühüm göstəricisidir. Bunun diqqətdə saxlanılması məqsədilə Naxçıvan Muxtar Respublikasında həyata keçirilən işlər sırasında sahibkarlığın inkişafı, məşğulluğun və özünüməşğulluğun təmin olunması üzrə tədbirlərin xüsusi rolu vardır. Sahibkarlığın inkişafı məqsədilə görülən işlər kimi özəl sektora kredit dəstəyinin artırılması, ixracqabiliyyətli sənaye və kənd təsərrüfatı məhsulları istehsalının təşviq olunması çox əhəmiyyətlidir. 2017-ci ilin yanvar ayında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə verilmiş 1 milyon 74 min 200 manat məbləğində kredit özəl sektorda işgüzar fəallığın və gəlirlərin artımına təsir edib. Belə ki, hazırda muxtar respublikada ümumi daxili məhsul istehsalının həcmində özəl bölmənin payı 87 faizdən çoxdur. Yerli xammaldan istifadə olunması ilə sənaye məhsullarının istehsalına diqqətin artırılması və qiymətlərin bazar tələbatına uyğunlaşdırılması bu sahəyə müsbət təsir edib. Bu baxımdan cari ilin ilk ayında 88 milyon 215 min 500 manatlıq həcmlə muxtar respublikada yaradılan ümumi daxili məhsulun tərkibində ilk yeri tutan sənaye sahəsinin məşğulluğun təmin olunması və əhali gəlirlərinin formalaşmasında mühüm paya malik olduğunu deyə bilərik.

Əhali gəlirlərinin artırılmasında məşğulluq və xüsusən də ailə təsərrüfatları formasında özünüməşğulluq mexanizminin mühüm rolu vardır. Naxçıvanda bu vacib məsələyə olan diqqət də əhali gəlirlərinin artımına təsir edib. Belə ki, istehsal müəssisəsi yaratmadan təşkil olunan bu məşğulluq forması kiçik və orta ölçülü biznesin ilkin rüşeymi kimi dünyanın güclü dövlətlərinin də iqtisadiyyatında mühüm yer tutur. Muxtar respublikada ailə biznesi yolu ilə istehsal olunan və ölkəmizin müxtəlif regionlarına, həmçinin xarici bazarlara göndərilən yüksəkkeyfiyyətli məhsulların satışından əldə olunan gəlirlər bu baxımdan əhəmiyyətli mənbədir. Ümumilikdə, əhali gəlirlərinin sabit artım dinamikasına təsir edən davamlı məşğulluq tədbirləri, xüsusən də “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası istiqamətində işaxtaranların məşğulluğunun təmin edilməsi, əmək bazarının tələbinə müvafiq olaraq tədbirlərin görülməsi də burada öz təsirini göstərən amillərdəndir.

**Əli CABBAROV**

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətini fevral ayında da davam etdirib, ixtisaslı kadrların hazırlanması, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması diqqət mərkəzində saxlanılıb.***

## Fevral ayında səhiyyə xidmətinin əhatə dairəsi genişlənib

Muxtar respublikada aparılan genişmiqyaslı quruculuq işləri çərçivəsində fevral ayında Şərur rayon Arpaçay və Çəmənli kəndlərində feldşer-mama məntəqələri əhalinin istifadəsinə verilib.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi İnnovasiya və Təchizat Mərkəzindən dializ olunan xroniki böyrək çatışmazlığı olan xəstələr üçün dializ materialları və dərman preparatları, Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutundan Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinə ilkin vərəm intoksikasiyasını təyin etmək üçün testlər, tibbi materiallar, Azərbaycan Respublikası Milli Onkologiya Mərkəzindən Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzinə kimyəvi terapiya dərman preparatları gətirilib.

Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzin həkimləri tərəfindən Kəngərli rayon təhsil müəssisələrində işləyən 20 nəfər qadının süd vəzində profilaktik müayinə aparılıb, 1 nəfərdə patologiya aşkar olunaraq Onkoloji Mərkəzə ətraflı müayinə və müalicəyə dəvət edilib.

Muxtar respublika ərazisində yoluxucu xəstəliklərə görə epidemioloji vəziyyət sabit olub, xüsusi təhlükəli infeksiyalar qeydə alınmayıb. Muxtar respublika ərazisindəki idman müəssisələrində 7 min 100 kvadratmetr sahədə dezinfeksiya və dezinseksiya tədbirləri aparılıb.

Muxtar respublikamızın səhiyyə sistemində kadrların bilik və bacarığının artırılması vacib məsələ kimi diqqət mərkəzində saxlanılıb. 4 həkim təcrübə keçmək üçün Bakı şəhərindəki tibb müəssisələrinə, 19 tibb bacısı Tibb Kollecində təkmilləşdirmə kursuna göndərilib.

Fevral ayında sertifikasiya imtahanında iştirak edən 72 orta tibb işçisindən 40 nəfəri uğurlu nəticə qazanıb.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının zalında “Botulizm xəstəliyi” mövzusunda konfrans keçirilib. Konfransda infeksionistlər, pediatrlar, terapevtlər, Naxçıvan Dövlət Universitetinin və Tibb Kollecinin tələbələri iştirak ediblər.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi fevral ayı ərzində 3 nəfəri Bakı şəhər Şağan qəsəbəsində yerləşən Əlillərin Müalicə Pansionatına, 16 nəfəri Mərdəkan qəsəbəsində yerləşən Müharibə və Əmək Veteranları Pansionatına, 21 nəfəri müxtəlif xəstəxanalara müalicəyə göndərib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***Bir neçə gün bundan əvvəl beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri muxtar respublikanın sosial-iqtisadi inkişafı haqqındakı çıxışında çox mühüm bir məqama toxundu. Ali Məclisin Sədri bildirdi ki, "...Yeni müəssisələr yaradılarkən muxtar respublikanın bütün rayonları üzrə əmək və xammal ehtiyatları, təsərrüfatçılıq ənənələri nəzərə alınmalıdır. Ailə təsərrüfatlarının yaradılması və inkişafı yeni istehsal müəssisəsi yaratmadan məşğulluq problemini həll edir, əhali gəlirlərinin həcminin artmasına müsbət təsir göstərir. Ona görə də ailə təsərrüfatlarının yaradılmasına üstünlük verilməlidir".***

# Ailə təsərrüfatları özünüməşğulluğun və iqtisadi yüksəlişin nümunəvi modelidir

Həqiqətən də, müasir dövrdə inkişaf etmiş ölkələrin hamısında özəl sektorun əsası ailə təsərrüfatları və belə təsərrüfatların özəyini təşkil edən ailə biznesi üzərində qurulub. Bəs ailə təsərrüfatı nədir? Bu cür təsərrüfatların fəaliyyəti ölkəmizdə hansı qanunvericiliklə tənzimlənir və bunun mahiyyəti nədən ibarətdir?

Qeyd edək ki, Azərbaycanda ailə təsərrüfatları haqqında hüquqi bazanın yaradılması 2005-ci ilə təsadüf edir. Belə ki, "Ailə kəndli təsərrüfatı haqqında Azərbaycan Respublikasının Qanunu"nda (14 iyun 2005-ci il) göstərilir ki ailə kəndli təsərrüfatı – ailə üzvlərinin və onlarla birgə fəaliyyət göstərən şəxslərin fərdi əməyi və mülkiyyətində və ya icarəsində olan əmlak əsasında hüquqi şəxs yaratmadan kənd yerlərində istehsal və digər təsərrüfat fəaliyyətinin (məhsulların istehsalının, emalının, saxlanmasının, daşınmasının və satılmasının) birgə həyata keçirilməsidir. Ailə kəndli təsərrüfatının tərkibi bir nəfərdən, onun ailə üzvlərindən və onlarla qohumluq və ya digər münasibətlər əsasında birgə fəaliyyət göstərən şəxslərdən ibarət ola bilər. Ailə kəndli təsərrüfatı kənd yerlərində qanunvericiliklə qadağan olunmayan və məhdudiyyət qoyulmayan bütün iqtisadi fəaliyyət növləri ilə məşğul olan təsərrüfatçılıq subyektidir və onun fəaliyyəti sahibkarlıq sayılmır. Qanunvericiliyin məqsədi kənd yerlərində ailə əməyinə əsaslanan təsərrüfatların inkişafının dəstəklənməsi, özünüməşğulluğu stimullaşdırılması və onun səmərəliliyinin yüksəldilməsi, alternativ gəlir mənbələrinin genişləndirilməsi, kənd yerlərinin inkişafının sürətləndirilməsinə şərait yaratmaqdır.

Bazar iqtisadiyyatı şəraitində ümumi iqtisadi fəallıqda əsas yeri kiçik və orta sahibkarlıq subyektləri tutur. Təşəbbüskarlıqda həlledici rol da məhz onlara məxsusdur. Bunu inkişaf etmiş ölkələrin real iqtisadi vəziyyətlərindən, təcrübələrindən də əyani şəkildə görmək mümkündür. Ancaq ailə təsərrüfatları kiçik sahibkarlıq subyektləri deyil, ondan aşağı meyarda fəaliyyət növüdür. Yəni ailə təsərrüfatları kiçik sahibkarlıq üçün bir növ başlanğıc rolunu oynayır. O zaman sual yaranır ki, ailə təsərrüfatlarını kiçik sahibkarlıq subyektlərindən necə fərqləndirmək mümkündür? Bunun üçün sahibkarlıq subyektlərinin təsnifatı haqqında məlumatlara ehtiyac duyuruq.

Vurğulayaq ki, sahibkarlıq subyektlərinin təsnifatı üçün vahid beynəlxalq meyarlar yoxdur. Ayrı-ayrı ölkələrdə müxtəlif meyarlar mövcuddur. Məsələn, Almaniyada, Belçikada, Böyük Britaniyada, Niderlandda, Portuqaliyada meyar kimi müəssisənin dövriyyə göstəricisi, İtaliya və İrlandiyada daşınmaz əmlakın həcmi istifadə olunur. Meyarlar arasındakı fərqlilik milli xüsusiyyətlərin, sənayeləşdirmə səviyyəsindəki fərqin, ölkənin beynəlxalq əmək bölgüsündə yeri və rolunun nəticəsidir. Dünya təcrübəsi göstərir ki, müxtəlif təşkilati-hüquqi formalı müəssisələrin kiçik və orta sahibkarlıq subyektlərinə aidliyinin əsasında duran daha ümumi meyarlara işçi heyətinin sayı, nizamnamə kapitalının miqdarı, aktivlərin və dövriyyənin həcmi kimi meyarlar daxildir. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin daxil olduğu İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı 19 nəfərədək şəxsin çalışdığı müəssisələri mikro, 99 nəfərədək şəxsin çalışdığı müəssisələri kiçik, 100-499 nəfərin çalışdığı müəssisələri orta, 500 nəfərdən çox şəxsin çalışdığı müəssisələri isə iri müəssisələr kimi təsnifləşdirir. Məsələn, Avropa Birliyi ölkələrində 150 milyon məşğul əhalinin 100 milyon nəfərinin çalışdığı 16 milyondan çox kiçik və orta müəssisə fəaliyyət göstərir. Onlardan, təxminən, 15 milyonu (90 faizdən çoxu) 10 nəfərədək işçisi olan mikro müəssisələrdir, qalan bir milyon müəssisədə çalışanların sayı 10-250 nəfər arasında dəyişir. Qardaş Türkiyə Respublikasında işçilərinin sayı 9 nəfərədək, illik dövriyyəsi 1 milyon lirəyədək olan müəssisələr mikro müəssisələr, işçilərinin sayı 10-49 nəfərədək, illik dövriyyəsi 8 milyon lirəyədək olan müəssisələr kiçik müəssisələr, işçilərinin sayı 50-249 nəfərədək, illik dövriyyəsi 40 milyon lirəyədək olan müəssisələr orta müəssisələr sayılır.

Azərbaycanda sahibkarlıq subyektlərinin təsnifatı isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 iyun 2015-ci il tarixli "İri, orta və kiçik sahibkar meyarları"nın təsdiq edilməsi haqqında" Qərarında göstərilən meyarlara əsaslanır. Belə ki, həmin qərara əsasən, sahibkarların kiçik, orta və iri sahibkar kimi müəyyənləşdirilməsi üçün "işçilərin orta siyahı sayı" və "illik gəlir" meyar göstəricilərindən daha yüksək olanı əsas götürülür. Həmin meyarlara görə, işçilərin orta siyahı sayı 25 nəfərə kimi, illik gəliri isə 200 min manatadək olanlar kiçik, 25 nəfərdən 125 nəfərədək və 200 min manatdan 1 milyon 250 min manatadək olanlar isə orta sahibkarlar sayılır. Buradan da bir daha aydın olur ki, ailə təsərrüfatları həm işçi sayı, həm də illik dövriyyə baxımından göstərilən rəqəmlərdən daha aşağı meyarları özündə əks etdirir. Bəs ailə təsərrüfatlarının inkişaf etdirilməsinin hansı müsbət tərəfləri var?

Adından da göründüyü kimi, ailə təsərrüfatı ailə üzvlərinin iştirak etdiyi, idarəçiliyin və varisliyin ailə ənənələri ilə həyata keçirildiyi biznes modelidir. Yəni işin bünövrəsini ailənin başçısı – ata qoyur, bu biznesin inkişafına və davamına ana, həmçinin sonradan uşaqlar və nəvələr də qoşulurlar. Ailə təsərrüfatında gəlirlərin və kapitalın idarə edilməsində ailə üzvlərinin hamısı bərabər iştirak edir ki, bu da etibarlılığı şərtləndirən vacib amillərdəndir. Ailə biznesində maliyyə intizamı yüksəkdir, hər kəs bir-birinə çox etibar edir. Buna görə də belə biznesdə digər müştəri və tərəfdaşlarla konfliktlərə çox az rast gəlinir. Ailə təsərrüfatı yaradanda bir çoxları işə məhz ailə üzvlərini cəlb etməyə çalışır. Bunun müsbət tərəfi ondadır ki, gəlir ailə büdcəsindən kənara çıxmır, qazancdan hamı bəhrələnir. Digər tərəfdən, ailə üzvlərinin bir-birindən sirləri olmur, buna görə də biznesdə gözlənilməz uğursuz hadisələrin ehtimalı və maddi itkilər çox az olur. Ailə təsərrüfatının digər bir müsbət cəhəti odur ki, biznesin zəif zamanlarında işçilər daha az əməkhaqqı ilə, hətta pulsuz işləməyə razı olurlar. Maliyyə çətinlikləri olduqda, ailə üzvlərinə bunu izah etmək çox asandır. Bundan əlavə, ailə təsərrüfatında bütün ailə üzvləri biznesdə böyük təcrübə keçir və valideynlərin şəxsi timsalında bunu öyrənmə daha effektiv olur. Bu isə ailə başçısına uşaqlarının gələcəyinin təmin olunması və onlara biznesi daha irəli aparmaları üçün geniş imkanlar yaradır. Və nəhayət, ailə təsərrüfatı istehsal etdikləri məhsulda yeni dəyərlər yaradır və bu dəyərlər biznes inkişaf etdikcə yaşayır.

Ailə təsərrüfatlarının daha önəmli tərəflərindən biri burada ailə üzvlərinin məşğulluğunun təmin olunmasıdır. Məlumdur ki, muxtar respublikamızda əmək qabiliyyətli əhalinin böyük bir hissəsi məhz aqrar sektora məxsus ərazilərdə, yəni kəndlərdə məskunlaşıb. Deməli, iş üçün şəhərə üz tutanlar elə yaşadıqları yerdə öz məşğulluqlarını təmin edə bilərlər. Bu isə ailə təsərrüfatçılığının, başqa sözlə desək, mikrosahibkarlığın inkişafına, eləcə də daxili bazarın yerli məhsullarla təmin edilməsinə öz töhfəsini verər. Bundan başqa, istənilən ailə təsərrüfatı davamlı inkişaf edirsə, bu təsərrüfatın kiçik sahibkarlıq subyektinə çevrilməsi də qaçılmazdır. Çünki sahibkar özü bunda maraqlı olur. Bu isə təsərrüfata digər işçilərin cəlbini zəruri edir, başqaları üçün əlavə iş yerləri yaranır. Buradan isə o nəticəyə gəlmək mümkündür ki, ailə təsərrüfatçıları öz məşğulluqlarını özləri təmin edirlər. Ümid edirik ki, muxtar respublikada yaşayan ailələr bu işə yetərincə təşəbbüs göstərsələr, bu, naxçıvanlı ailələrin postneft dövrünə ən böyük töhfəsi olmaqla yanaşı, region iqtisadiyyatının daha da inkişaf etməsinə öz müsbət təsirini göstərər.

***Yazının sonunda qeyd edək ki, bu gün dünyada ailə biznesinin təsiri ilə böyüyərək inkişaf etmiş və dünya iqtisadiyyatında mühüm yerlər tutmuş yüzlərlə şirkət var. Hazırda Böyük Britaniyada firmaların 75 faizini, ABŞ-da 90 faizini, Avropa İttifaqı ölkələrinin 85 faizini ailə biznesi şirkətləri təşkil edir. Nisbətən zəif də olsa, qonşu Rusiyada da ailə biznesi inkişaf edir. Hər birimizin yaxından tanıdığı və dəyərləri milyard dollarla ölçülən "Siemens", "Adidas", "Samsung Electronics", "Tissot" və adını sadalamadığımız yüzlərlə şirkət ailə biznesi üzərində qurulub. Nəsillər dəyişsə də, ailə biznesləri öz ənənəsinə sadiqliyini qoruyur: bütün gəlirlər ailə üzvləri arasında bərabər bölünür.***

✍ Səbuhi HƏSƏNOV

---

*İstehsal müəssisələri*

# *"Qaragül"* tanıtım nişanı ilə xarici bazara çıxarılan məhsul

Toy evində qələbəlik idi. Qonaqları qarşılamaq üçün ciddi hazırlıq görülür, mağar qurulur, ətlik heyvanlar kəsilir, təmizlik işləri aparılırdı. Bakıdan, Gəncədən gələn yaxın qohumlarla hal-əhval tutduq. Bu vaxt bizə yaxınlaşan uşaqlardan biri əl arabasındakı heyvan dərilərini göstərərək dedi:

– Ay ata, bunları hara atım?

– Hara atacaqsan oğul, evin yaxınlığında dərə var, atın ora. Əzəldən ora küllük yeri olub.

– O, əzəldən idi. İndi zaman dəyişib. Ora heç nə atmaq olmaz, – deyib qonaqların söhbətinə müdaxilə etdim.

– Bəs məişət tullantılarını hara atırsınız?

– Narahat olmayın, onun üçün də bir əncam çəkilib.

Hər kənddə olduğu kimi, bizim kənddə də təmizlik qutuları qoyulub. Ayrıca maşın təyin olunub, işçi ayrılıb. Tərtib olunmuş qrafikə uyğun olaraq tullantılar qutulardan götürülüb təyin olunmuş yerlərə daşınır.

Bu da bir yenilikdir, – deyən qonaqlar kəndlərimizdə qurulub yaradılanlara, qorunub saxlanılan təmizliyə, səliqə-sahmana heyran olduqlarını bildirdilər. Elə bu vaxt ev sahibi yaxınlaşdı.

– Dərilər hardadır? Nadir gəlib, verək aparsın.

– Nadir kimdir? – deyə soruşdular.

– Nadir dəri emalı müəssisəsinin rayonda olan nümayəndəsidir.

– Naxçıvanda dəri emalı müəssisəsi var?

– Əlbəttə, neçə illərdir, fəaliyyət göstərir, – deyib əl arabasındakı dəriləri darvazaya yaxınlaşan maşına yığdı.

Növbəti gün həmin müəssisə barədə oxucularımıza ətraflı məlumat vermək üçün üz tutduq Babək rayonunun Araz kəndinə. Qeyd edək ki, bu kənd son illərin quruculuq ərməğanlarından olan 7 yaşayış məntəqəsini birləşdirən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolu üzərindədir.



Sahibkar Arzu Dünyamalıyev bildirdi ki, müəssisəyə Sahibkarlığa Kömək Fondundan dövlət maliyyə dəstəyi göstərilib və layihəyə uyğun istehsal sahələri, xammal və hazır məhsulların saxlanılması üçün anbar, yeməkxana, inzibati bina və digər yardımçı otaqlar tikilib istifadəyə verilib, dəri emalı sahəsində müasir texnoloji avadanlıqlar quraşdırılıb.

2011-ci ildən fəaliyyətə başlayan müəssisədə yüksəkkeyfiyyətli məhsul istehsalı və xammal ehtiyatının yaradılması üçün hərtərəfli şərait yaradılıb. Müəssisənin daha müasir texnoloji avadanlıqlarla təmin olunması diqqət mərkəzində saxlanılıb, İtaliya istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb. Beləliklə, dəri emalı prosesində daha bir mərhələnin – müəyyən olunmuş təzyiqlə sıxılıb preslənərək dərinin tərkibində olan suyun kənarlaşdırılması prosesinin müəssisədə həyata keçirilməsinə başlanılıb.

Sahibkar xammal bazası barədə də danışaraq dedi ki, son illər muxtar respublikamızda həyata keçirilən kompleks tədbirlər, digər sahələrdə olduğu kimi, heyvandarlığın da inkişafına öz müsbət təsirini göstərib, fermer və fərdi təsərrüfatlarda iribuynuzlu və xırdabuynuzlu heyvanların baş sayı artıb. Nəticədə, daxili bazarın keyfiyyətli ət-süd məhsulları ilə təmin olunmasına əlverişli şərait yaradılıb. Ancaq kəsilən heyvanların dərilərinin tədarük olunub emal olunması problem olaraq qalırdı. Dəri emalı müəssisəsinin fəaliyyətə başlaması ilə kəsim zamanı iribuynuzlu və xırdabuynuzlu heyvan dərilərinin tədarük olunması problemi aradan qaldırıldı. Əvvəllər kəsilən heyvanların dəriləri tədarük olunmur, hara gəldi atılıb həmin ərazidə antisanitariya vəziyyəti yaradırdısa, indi bu müəssisənin nümayəndələri tərəfindən heyvan dəriləri tədarük olunur. Bu da hər bir fermerin gəlirinə müsbət təsir göstərir. Eyni zamanda rentabelliyin yüksəlməsinə səbəb olur, bazarlarda ucuzluq yaranır. Nəticədə həm istehsalçı, həm də istehlakçı qazanır.

Muxtar respublikamızda müasir texnoloji avadanlıqlarla təmin olunmuş "Bərəkət Ət Məhsulları Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyətə başlaması dəri emalı müəssisəsinin də daha keyfiyyətli xammalla təmin olunmasına geniş imkanlar açıb. Belə ki, primitiv üsullarla kəsimi həyata keçirilən heyvan dərilərində kəsiklərin olması emal prosesində problemlər yaradır. "Bərəkət Ət Məhsulları Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində isə kəsimdən ətin təhvil verilməsinədək bütün proseslər avtomatlaşdırılmış sistemlə aparıldığından dərilərdə heç bir kəsik aşkar olunmur, emal prosesi yüksək səviyyədə aparılır.

Xarici bazarda rəqabətqabiliyyətli müəssisəyə çevrilmək, müştərilərin sayını artırmaq üçün keyfiyyət amili diqqət mərkəzində saxlanılır. Texnoloji proseslərə ciddi əməl olunur. Müəssisədə əhalidən və ət məhsulları kompleksindən tədarük olunan dəri duzlanıb bir ay, müxtəlif kimyəvi maddələr əlavə olunmuş barabanda isə iki gün saxlanıldıqdan sonra tükdən ayrılıb xüsusi avadanlıqlarda ətdən təmizlənərək xromlanır. Sonra müəyyən olunmuş təzyiqdə sıxılaraq dərinin tərkibində olan su kənarlaşdırılır. İstehsal olunan məhsul bağlanmış müqaviləyə uyğun olaraq, yarımfabrikat halında Türkiyə Respublikasına göndərilir.

Dəri emalı müəssisəsinin aylıq istehsal gücü 120 ton iribuynuzlu, 12-15 min ədəd xırdabuynuzlu heyvan dərisindən ibarətdir. Hazırda tələbata uyğun olaraq iribuynuzlu və xırdabuynuzlu heyvan dəriləri emal olunur.

Kollektiv yüksəkkeyfiyyətli məhsul istehsal etmək əzmi ilə çalışır. Muxtar respublikamızdan və ölkəmizin digər regionlarından tədarük edilən iribuynuzlu və xırdabuynuzlu heyvan dəriləri emal olunaraq "Qaragül" tanıtım nişanı ilə Türkiyə Respublikasında fəaliyyət göstərən, bu sahə üzrə qabaqcıl təcrübəyə malik sifarişçi şirkətlərin ünvanlarına göndərilir. Müəssisənin tam gücü ilə işləməsi və əlavə işçi qüvvəsinin cəlb edilməsi istiqamətində işlər davam etdirilir, dəri emalı sahəsində qabaqcıl təcrübəyə malik xarici şirkətlərlə əlaqələr genişləndirilir, təcrübə mübadiləsi aparılır.

Müasir texnoloji avadanlıqları idarə edən mütəxəssislərin hazırlanması istiqamətində görülən işlərdən də danışan sahibkar bildirdi ki, yeni istehsal müəssisəsinin fəaliyyət göstərməsi dərilərin emal olunaraq yarımfabrikat halında ixrac olunmasına əlverişli şərait yaratmaqla bərabər, əhalinin məşğulluğunun təmin olunmasına da geniş imkanlar açıb. Hazırda müəssisədə dəri emalı sahəsində müasir texnologiyanı mənimsəyən, yüksək əməkhaqqı və xüsusi geyim formaları ilə təmin olunan mütəxəssislər çalışır. Ayrı-ayrı rayonlarda isə fiziki şəxslərlə müqavilə bağlanılıb. Bu isə heyvan dərilərinin vaxtında tədarük olunub müəssisəyə gətirilməsinə imkan verir.

✍ Kərəm HƏSƏNOV

**_Keçmiş sovet imperiyasının müstəqilliyini əlindən aldığı Azərbaycanda, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda neçə-neçə kəndimiz boşalıb. Lizbirt kəndi də bu taleyi yaşayıb. Şahbuz rayonunun Qaraboya, Zərnətün, Zırnel, Hənçəran, Culfa rayonunun Qarakömər, Zoğala kəndləri kimi onun da adı bu gün arxivlərdə qalıb._**

*Yurd yerlərimiz*

# Orda bir kənd var idi

## Əgər Lizbirtdə yaşayış olsaydı, indi ora da şəhərləşən kəndlərimiz sırasına qoşulacaqdı





Lizbirt kəndinin keçmiş sakini Bəxtiyar Novruzov bildirir ki, 1964-cü ildə kənddən köçüblər. Həmin vaxt onun 5 yaşı varmış. Amma ata-babalarının söhbətləri lizbirtli günləri onun yaddaşına köçürüb. Elə o xatirələrin təsiri altında kənddən bəhs edərək deyir: "Lizbirt kəndinin əsrarəngiz təbiəti var idi. Onun bumbuz suyu olan bulaqları can dərmanı idi. Çöllərindəki əvəlik, ələyəz, diyçə, çaşır, sobu, yemişan, həmərsin, zirinci həm yığıb qış dirriyi edir, həm də şəhərə gətirib satırdılar. Kənddə hər evin təndiri vardı. Çöllərin ətirli bitkilərindən yığıb kətə bişirərdilər. Kətənin, qalının, çöçənin, çörəyin ətri min ağaclıqdan adamı vurardı".

Onun sözlərinə görə, Lizbirtin əkin sahələrində buğda əkilir, kənddə olan su dəyirmanında üyüdülürdü. Arpa, lobya, vələmir, darı, çəltik, pərinc, qarğıdalı və digər əkinlərdən də bol məhsul götürülürdü. Pərincin yaxşı yarması olurdu. Əkməyə texnika olmasa da, insanlar zəhmətə qatlaşır, bir qarış torpağı belə, boş qoymurdular. Əkində, əsasən, at kotanlarından istifadə olunurdu. Əkin sahələrinin çoxu dəmyə idi. Amma göl də var idi kəndin üst tərəfində. Əyri qaya bulağının suyu bura doldurulur, həyət-bacalardakı əkində, ağacların suvarılmasında qənaətlə istifadə olunurdu. Kənddə müxtəlif növ meyvələr yetişdirilirdi. Cəviz ağaclarına daha çox üstünlük verilirdi. Ağacların hər birindən 5-6 kisə cəviz yığmaq olurdu.

Bəxtiyar kişi deyir ki, kəndimiz üzbəüz iki təpənin üzərində binə olmuşdu. Ortada dərə var idi. Qaravuş dağından çıxan bulaqların suyu bir yerə yığılıb çay əmələ gətirirdi və o çay bu dərə ilə axıb gedərək Cəhriçaya qarışırdı. Kəndin yolu bu çayın içindən keçirdi. Odur ki, çətinlik vardı. O vaxtlar qış ayları çox sərt keçirdi. Dağlara yağan qarın suyu əriyəndə yazda daşan sel yolu çox vaxt bağlayırdı.

Deyir ki, kəndin insanları heyvandarlıqla da məşğul olublar. Kəndin aşağı tərəfində 8-9 kaha vurublar ki, bu kahaların hər birində 100 başdan artıq heyvan saxlanılırdı. Sonralar kənddə keçmiş sovet ordusunun hərbi bazası yerləşdirilmişdi.

Bəxtiyar kişi qeyd edir ki, 1964-cü ildə Lizbirtdə 2 ev qalmışdı. Camaat Naxçıvan şəhərinə, Babək rayonunun Didivar, Yuxarı Buzqov, Aşağı Buzqov kəndlərinə köçüb. Böyüyəndən sonra Lizbirt kəndi onu özünə çəkib. Gedib kənddə ev tikib, yaşayıb da. Amma uşaqlar məktəb yaşına çatanda yenidən köçmək məcburiyyətində qalıb. İndi də unutmur kəndini. Deyir, bərəkətli torpağı var. Aqrar islahat həyata keçiriləndə kəndin torpaqları lizbirtlilərə bölündü: "Bu ilin payızında gedib orda 14 hektar arpa əkmişəm. Gələn il 40-50 hektara çatdırmağı düşünürəm".

Şirin xatirələrdən kövrələn Bəxtiyar kişi Xalq şairimiz Məmməd Arazın şeirinin iki misrasını pıçıldayır:

*Kəndim balacasan, çox balacasan*
*Adın yox dünyanın xəritəsində...*

Gərməçataq kənd sakini, tibb işçisi Həmzə Sadiqov da Lizbirt kəndi ilə bağlı xatirələrini bizimlə bölüşür. O, Lizbirti belə xatırlayır: "1960-cı illərin əvvəlləri idi. Naxçıvanda Tibb Texnikumunu yenicə bitirmişdim. Yuxarı Buzqov, Aşağı Buzqov, Gərməçataq və Lizbirt kəndlərində çalışmağa başladım. Şahbuz rayonunun ərazisində olan Lizbirt kəndi Payız kəndindən 4-5 kilometr aralıda, Cəhriçayın sol tərəfində yerləşirdi. Əvvəllər məktəb olmuşdu kənddə, sonralar uçub dağılmışdı, yeri qalırdı. Camaat çox əziyyət çəkirdi. Yolu yox, məktəbi yox. Elə aylar olurdu ki, at, ulaqla da kəndə getmək mümkün olmurdu. Bir ağır xəstə olanda adamlar çiyinlərində gətirib əsas yola çıxarırdılar. Yaz ayları olanda, çay daşanda isə insanların taleyi Tanrının ümidinə qalırdı".

Bəli, adamları zəhmətkeş, əməksevər olan lizbirtlilər 1964-cü ildə kənddən köçmək məcburiyyətində qalıblar. İkinci Dünya müharibəsində kişiləri cəbhədə döyüşən, qadınları, qızları, ümumiyyətlə, əli iş tutan hər kəsin əməyi ilə torpağa daha çox alın təri axıdıb cəbhəyə ərzaq yardımı göstərən insanlar sonra Lizbirtdən ürək ağrısı ilə ayrılıblar. Arxiv sənədləri də təsdiq edir ki, 1944-cü ildə sakinlər Qızıl Ordunun çörək fonduna 1955 ton payızlıq buğda, 176 ton payızlıq arpa veriblər.

Bu kənd haqqında apardığımız araşdırmalar zamanı o da məlum oldu ki, o vaxtlar kəndin uşaqları gedib Naxçıvan şəhərində, Şahbuz qəsəbəsində, Şıxmahmud kəndində oxuyurmuşlar. Ailələr də daha çox bu səbəbdən tərk ediblər kəndi. Əgər Lizbirt kəndi qalsaydı, indi ona da muxtar respublikamızın əksər kəndləri kimi şəhər görkəmi veriləcəkdi, sakinlərin sosial həyatının yaxşılaşdırılması istiqamətində mühüm işlər görüləcəkdi. Cəmi 27 evi olan Ordubad rayonunun Nürgüt, 33 evi olan Xurs, Babək rayonunun Yuxarı Buzqov, Göynük, Culfa rayonunun Gal kəndləri kimi onun da qayğısına qalınacaqdı. İndi onun da müasir, yaraşıqlı məktəbi, xidmət mərkəzi, kənd mərkəzi, səhiyyə ocağı olacaqdı. İlin bir çox aylarında sakinləri digər bölgələrdən təcrid edən çayın üzərindən körpü salınacaqdı, yol çəkiləcəkdi. Bu gün Lizbirtə də qaz xətti çəkiləcək, onun işığı sönməyəcək, ocağı gur yanacaqdı...

*...O vaxtlar da belə olsaydı, kimsə qopara bilməzdi onları bu ata ocağından. Təəssüf ki, bu günün bəxtiyarlığına çata bilmədi Lizbirt. Adı yaddaşımızdan silinməkdə olan kəndlərimizi xatırladıqca bu günümüzün qədir-qiymətini daha çox bilirik...*

**Hafizə ƏLİYEVA**

# Muzey bələdçiləri üçün seminar-treninqlər davam etdirilir

## *Növbəti belə tədbir Dövlət Bayrağı Muzeyində olub*



Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən seminar-treninqdə nazirliyin əməkdaşı Qumral Məmiyeva "Muzey bələdçisinin davranış qaydaları" mövzusunda çıxış edib. Qeyd edilib ki, ötən il muxtar respublikanın muzey şəbəkəsi üçün 11 belə tədbir təşkil olunub. Seminar-treninqlərin keçirilməsində əsas məqsəd muzeylərdə ekskursiya işinin təşkili ilə bağlı mövcud nöqsan və çatışmazlıqları aradan qaldırmaq, muzey bələdçilərinin nəzəri və praktik bilik səviyyəsini yüksəltməkdir. Keçirilən seminar-treninqlər muzey bələdçiləri üçün faydalı olub. Onlar vəzifə funksiyalarını dərindən öyrənməyə səy göstərməklə yanaşı, muzey işi haqqında ətraflı məlumat alıblar.

Bildirilib ki, muxtar respublikamızda muzey fəaliyyətinin yüksək səviyyədə təşkil edilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir. Muzeylərimiz üçün yeni binaların inşa olunması, onların təmiri, yenidən qurulması və maddi-texniki bazasının möhkəmləndirilməsi işin səviyyəsinin yüksəldilməsinə xidmət edir. Görülən işlər muzey işçiləri qarşısında da mühüm vəzifələr qoyur. Bu gün muzeylərimizdə hazırlıqlı, bilikli, xarici dilləri bilən, işlədiyi mədəniyyət ocağı haqqında ətraflı məlumata malik bələdçilərə ehtiyac çoxdur.

Diqqətə çatdırılıb ki, muzey bələdçiləri müxtəlif səviyyəli insanlarla, məktəbli və tələbələrlə, yaşlı nəsillə işləməyi bacarmalı, nəzakət və davranış qaydaları, geyim tərzi, intellektual dünyagörüşü ilə muzeyə gələnlərdə xoş təəssürat yaratmalıdırlar. Bələdçilər muxtar respublikada gedən yeniliklərdən xəbərdar olmalı, muzey ziyarətçilərinin suallarını diqqətlə dinləyib elmi əsaslarla cavablandırmalıdırlar. Muxtar respublikamıza gələn turistlərə qədim diyarımız haqqında ətraflı məlumat vermək üçün muzey bələdçisi daim öz üzərində çalışmalı, tariximizi və mədəniyyətimizi dərindən bilməlidir.

Sonra Dövlət Bayrağı Muzeyində muzey bələdçilərinin təqdimatında Azərbaycan və ingilis dillərində ekspozisiyaya baxış olub, ekskursiya mətni müzakirə edilib, muzey bələdçilərinə metodik tövsiyələr verilib.

# "Bəhruz Kəngərli yaradıcılığı gənc istedadların gözü ilə" mövzusunda sərgi

**_Naxçıvan Dövlət Rəsm Qalereyasında "Bəhruz Kəngərli yaradıcılığı gənc istedadların gözü ilə" mövzusunda etüd sərgi təşkil olunub._**

Tədbiri giriş sözü ilə Naxçıvan Dövlət Rəsm Qalereyasının direktoru, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvü Hökümə Məmmədli açaraq bildirib ki, bu mövzuda ilk dəfə təşkil olunan sərgidə qədim diyarımızın uşaq incəsənət və bədii sənətkarlıq məktəblərinin şagirdləri iştirak edirlər. Şagirdlərin çəkdikləri rəsmlərdə onların görkəmli fırça ustasının mövzularına müraciəti aydın hiss olunur. Balaca rəssamların çəkdikləri rəsmlərdə də Vətən sevgisi, torpağa bağlılıq duyğularını görmək mümkündür. Uşaqların bu mövzulara müraciəti onların rəssamın əsərlərindən həm də təsirləndiyinin nümunəsidir. Bu sərginin təşkilində əsas məqsədlərdən biri də onların bacarığını ictimaiyyətə təqdim etmək və istedadlı şagirdləri aşkara çıxarmaqdır.

Bəhruz Kəngərli Muzeyinin direktoru Səbinə Əlincəli çıxışında görkəmli rəssamın əsərlərinin tamamilə milli ruhda və üslubda olduğunu bildirib. Qeyd olunub ki, böyük rəssamın rəsm əsərləri janr və üslub müxtəlifliyi ilə seçilir. Rəssamın mənzərə, portret janrlarında çəkdiyi rəsmlər təsviri incəsənətimizin qızıl fonduna daxil olub.

Muzey direktoru bildirib ki, hazırda Bəhruz Kəngərli Muzeyində 1175 eksponat mühafizə olunur. Onların 266-sı muzeydə nümayiş etdirilir.

Sonra muxtar respublikanın uşaq incəsənət və bədii sənətkarlıq məktəblərində təhsil alan şagirdlərdən Gülay Zeynalova, İlham Əbilov, Nurlan Cəfərli, Faiq Şahsuvarov, Rəşid İsmayılov, Turac Bağırlı, Nisəbəyim Babayeva, Səid Seyidli, Zəfər Quliyev, Jalə Əliyevanın rəsmlərindən ibarət sərgiyə baxış olub.

Sonra gənc rəssamlar rəsm əsərlərinin çəkilişinə başlayıblar.

Tədbirin sonunda fərqlənənlər fəxri fərmanla təltif ediliblər.

**Əli RZAYEV**

*Bakı şəhərində keçirilən Daxili İşlər Nazirliyinin əməkdaşları arasında güc çoxnövçülüyü üzrə Azərbaycan birinciliyinə yekun vurulub.*

# İdmançılarımız ölkə birinciliyində 7 medal qazanıblar

Ölkə birinciliyində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin 7 idmançısı mübarizə aparıb. 65 kiloqram çəki dərəcəsində final görüşü məhz iki idmançımız arasında keçirilib. Rəşad Həsənov Elşən Qasımova qalib gələrək ölkə birinciliyinin qalibi olub. İdmançımız eyni zamanda qol güləşində də ilk pilləni tutub. Yarışın baş mükafatını qazanan digər idmançımız 85 kiloqram çəki dərəcəsində mübarizə aparan Cavanşir Yaqubov olub. 70 kiloqram çəki dərəcəsində Qartal Əliyev, 90 kiloqram çəki dərəcəsində Elvin Əliquliyev və +90 kiloqram çəki dərəcəsində Elməddin Abdullayev yalnız final görüşlərində məğlub olaraq ölkə birinciliyini ikinci pillədə başa vurublar.

Sonda qalib idmançılarımız təşkilatçılar tərəfindən diplom və medallarla təltif olunublar.

# Voleybol üzrə rayon birinciliyi

*Şahbuz Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatının Gənclər Birliyinin birgə təşkilatçılığı ilə "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında ümumtəhsil məktəbləri komandaları arasında rayon birinciliyi keçirilib.*

Əvvəlcə rayon Gənclər və İdman İdarəsinin əməkdaşı İdris Qəhrəmanov və Uşaq-gənclər idman məktəbinin direktoru Ramin Qənbərov çıxış edərək zərərli vərdişlərin insan sağlamlığı üçün nə qədər təhlükəli olduğu haqqında şagirdlərə geniş məlumat veriblər. Yarışda 6 komanda olimpiya sistemi üzrə mübarizə aparıb.

Yekun nəticəyə əsasən, Biçənək kənd tam orta məktəbinin komandası qalib adını qazanıb. Kükü kənd tam orta məktəbinin komandası ikinci, Aşağı Qışlaq kənd tam orta məktəbinin komandası isə üçüncü olub.

Qalib komandalara yarış təşkilatçılarının diplomları təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

*İtmişdir*

Talıbov Famil Nadir oğlunun adına verilmiş 11/544B nömrəli qeydiyyat vəsiqəsi və 6810 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 170